"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 10 dekabr 2014-cü il № 94 (1911) | Qiyməti 25 qəpik

*Ömrünü xalqına həsr edən əbədiyaşar rəhbər*

# Müasir Azərbaycan Ordusunun banisi

***Hələ SSRİ dövründə azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsi yolunda süni maneələr yaradıldığı bir vaxtda Heydər Əliyevin göstərdiyi polad qətiyyət hər zaman qəlbimizi qürur hissilə dolduracaqdır. Ümummilli liderimiz 1971-ci ilin aprelində gənclərimizin ali hərbi məktəblərə hazırlanması barədə xüsusi sərəncam imzalayır. Bununla da həmin il iyunun 20-də milli zabit kadrlarının yetişdirilməsində əsas baza rolunu oynayacaq hərbi liseyin bünövrəsi qoyulur. Liseyə xalqımızın qüdrətli sərkərdələrindən biri olan Cəmşid Naxçıvanskinin adı verilir.***



Bu gün doğma ordumuzun zabit heyətinin əsasını məhz C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edir. Onların 8 nəfəri erməni faşizminə qarşı döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli ada layiq görülüb, onlarla məzun zabit isə orden və medallarla təltif olunub. Liseyin məzunları arasında generallar, yüksək rütbəli zabitlər yetişib. Bütün bunlar ümummilli liderimizin ölkəmizin hərbi qüdrətini artırmaq sahəsindəki gərgin zəhmətinin və yüksək fədakarlığının əyani sübutudur.

XX əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin ali hərbi məktəblərdə təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasına nail olması müdrik şəxsiyyətin ölkəmizin parlaq gələcəyinə - bugünkü azad, müstəqil dövlətçiliyimizə hesablanmış uğurlu addımları idi.

Ulu öndər Heydər Əliyevin Moskvadan doğma Vətəni - Naxçıvana qayıdışı ilə Azərbaycanda ordu quruculuğunun Naxçıvan mərhələsi başlandı. Sovet ordusuna məxsus texnika, silah-sursat və avadanlıqlar Naxçıvanın müdafiəsi məqsədilə saxlanıldı. Ordu quruculuğunun Naxçıvan mərhələsi könüllü müdafiə dəstələrindən nizami ordunun yaradılmasınadək inkişaf yolu keçdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin bir-birinin ardınca imzaladığı Naxçıvanın müdafiəsi haqqında qərarlar müasir ordu quruculuğu tarixinin qiymətli sənədlər toplusuna çevrilib.

1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti Silahlı Qüvvələrimizin yaradılması barədə qərar qəbul etdi. Lakin o vaxtkı Azərbaycan rəhbərliyinin səriştəsizliyi və cəsarətsizliyi ucbatından bu sahədə heç bir uğurlu nəticəyə nail olunmadı. Düzgün siyasi xətt yürüdülmədi.

Ordu quruculuğunda buraxılan səhvlər son nəticədə torpaqlarımızın işğalı, 1 milyona yaxın soydaşımızın qaçqın vəziyyətinə düşməsi və s. itkilərlə nəticələndi.

Xalqın təkidli tələbi ilə yenidən ölkəmizdə hakimiyyətə qayıdan Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya ilə ölkə vətəndaşlarına müraciəti müasir ordu quruculuğu sahəsində əsaslı dönüşün başlanğıcı oldu. Ölkə rəhbərinin çağırışına cavab olaraq minlərlə gənc könüllü surətdə silaha sarılıb döyüşlərə atıldı. Ulu öndər 1994-cü ilin əvvəllərində cəbhəyə yola düşən əsgərlərlə görüşündə deyirdi: "Unutmayın ki, hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durub. Bilin ki, hər biriniz öz doğma Vəteninizi, öz ananızı, öz atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün cəbhəyə yola düşürsünüz. Sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə, ərazi bütövlüyünə kömək edəcəkdir".

Ulu öndərimizin müraciətindən ruhlanan döyüşçülərimizin hünər və rəşadəti sayəsində erməni hərbi birləşmələri bir çox istiqamətdə xeyli itki verərək geri çəkilməyə məcbur oldu. Məğlubiyyətdən sarsılmış təcavüzkar Ermənistan 1994-cü il mayın 12-də atəşkəs haqqında Bişkek protokoluna imza atmaq məcburiyyətində qaldı. Bundan sonra həm iqtisadiyyatımızın, həm də ordu quruculuğunun kompleks şəkildə inkişafı üçün real zəmin yarandı. Az bir vaxtda Silahlı Qüvvələrimiz vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi. Orduda sağlam mənəvi-psixoloji mühit yaradıldı və hərbi bölmələrin maddi-texniki təminatı xeyli gücləndirildi. Silahlı Qüvvələrimizin təcrübəli hərbi kadrlara olan ehtiyacını aradan qaldırmaq üçün mövcud hərbi məktəblərin fəaliyyətinin yenidən qurulması məqsədilə kompleks tədbirlər həyata keçirildi. Dahi rəhbərin gərgin zəhməti sayəsində təkcə Azərbaycanın deyil, xarici ölkələrin hərbi məktəblərində də Silahlı Qüvvələrimiz üçün yüzlərlə mütəxəssis - təcrübəli zabit heyəti hazırlandı. Silahlı Qüvvələrimizin zabitlərinin əksəriyyəti məhz Heydər Əliyevin qayğısı sayəsində Türkiyənin, Rusiyanın, Ukraynanın, Pakistanın, Çinin, İtaliyanın, Rumıniyanın və digər ölkələrin hərbi akademiyalarında təhsil alıblar. Ölkə rəhbəri Heydər Əliyev Silahlı Qüvvələr üçün ali təhsilli komandirlər və qərargah zabitləri hazırlamaq məqsədilə 1999-cu il fevralın 20-də Azərbaycanda Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması barədə sərəncam imzaladı.

Respublikamızın 1994-cü ilin mayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması və Şimali Atlantika İttifaqı ilə əməkdaşlığa qədəm qoyması ümummilli liderimizin Silahlı Qüvvələrimizin beynəlxalq əlaqələrini genişləndirmək yolunda atdığı ən uğurlu addımlarından biri kimi qiymətləndirilir. Heydər Əliyevin təşəbbüsü ilə Silahlı Qüvvələrimizin tərkibində yaradılmış xüsusi taborun şəxsi heyəti beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasının üzvü kimi 1999-cu ilin sentyabrında Türkiyə taboru ilə birlikdə Kosovoda, Əfqanıstanda və İraqda beynəlxalq sülhyaratma missiyalarını həyata keçirib. Bu gün də ordumuzun sülhməramlı qüvvələri Əfqanıstanda öz missiyalarını uğurla davam etdirir.

2001-ci ilin noyabrında Azərbaycanda "Kooperativ Determineyşn - 2001" çoxmillətli komanda-qərargah təlimlərinin keçirilməsi milli ordumuzun Avropa və dünya standartlarına doğru ən uğurlu addımı kimi dəyərləndirilməlidir.

Ulu öndərin 1998-ci ildə Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına Hərbi Liseyin filialının açılması və 26 iyun tarixinin hər il Silahlı Qüvvələr Günü kimi qeyd edilməsi barədə imzaladığı tarixi sərəncamlar ordu quruculuğu inkişafına böyük töhfə oldu.

2003-cü il aprelin 21-də Respublika Sarayında (hazırda Heydər Əliyev adına saray) C.Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Ali Baş Komandan Heydər Əliyev fəxrlə bəyan etdi ki, "Mən C.Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm".

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu prosesi bu gün onun siyasi kursunun mahir davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti ilə uğurla həyata keçirilir, Vətənimizin tərəqqisi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi və etibarlı şəkildə qorunması, respublikamızın ərazi bütövlüyünün bərpası, nizam-intizamlı, döyüş qabiliyyətinə malik ordumuzun daha da təkmilləşdirilməsi istiqamətində mühüm işlər aparılır.

Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna şəxsən nəzarət edir, cəbhə bölgələrində olur, orduda müasirləşmə və təlimlərin gedişi ilə maraqlanır. İldən-ilə artan müdafiə xərcləri, Silahlı Qüvvələrə ayrılan büdcə ordunun təminatını daha da yüksəldir. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələri ən müasir ordularla rəqabət aparmaq imkanına malikdir.

Ötən illərdə Ali Baş Komandanın rəhbərliyi ilə keçirilən hərbi paradlar müstəqil, müasir Azərbaycan Ordusunun günü-gündən artan gücünü, qüdrətini bir daha dünyaya nümayiş etdirdi.

Bu il iyunun 26-da Ali Baş Komandan cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə keçirilən Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi bir daha ordumuzun müasirləşməsinin göstəricisidir.

Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bəyan edən Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoyub: "Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe barədə dəfələrlə rəsmi bəyanatlar verilibdir. Mən də öz çıxışlarımda bəyan etmişəm - Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu, başlıca şərtdir. Bunun kənarında heç bir razılaşma, heç bir saziş mümkün deyildir. İşğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

***Ötən yüzillikdə xalqımızın böyük və nəhəng tarixi şəxsiyyətlərindən biri ümummilli liderimiz Heydər Əliyevdir. Onun adı Azərbaycan tarixinin səhifələrinə böyük hərflərlə yazılıb.***

***Dünyada elə müdrik, elə uzaqgörən dövlət xadimləri olub ki, onlar öz ölkələrinin və millətlərinin taleyində mühüm rol oynayıblar, xalqlarının xilaskarı olublar. Heydər Əliyev də xalqımızın tarixinə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil olub. Bənzərsiz şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən ümummilli liderimiz Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. İdarəçilik bacarığı ilə dünyanı heyran etmişdi.***

# Tarixin yetirdiyi şəxsiyyət

Müstəqil Azərbaycanın memarı və qurucusu kimi Heydər Əliyev tarixdə dərin iz salmış dahi şəxsiyyətlərdən biridir. Böyük qətiyyət və iradə sahibi olmuş ulu öndərimiz ən mürəkkəb və çətin vəziyyətlərdən daim düzgün yolu tapmağı bacarırdı. Onu uca zirvələrə qaldıran, lider səviyyəsinə yüksəldən ali keyfiyyətlərdən birincisi doğma xalqına bağlılığı və inamı idi. Xalq da öz liderinə sadiq idi, ona inanırdı. Azərbaycanlı olmağı ilə həmişə öyünən ümummilli liderimiz Heydər Əliyev bütün şərəfli ömrünü xalqının rifahına, Azərbaycanı qurub-yaratmağa və müstəqil ölkəsini dünyada tanıtmağa sərf etdi. Bütün gücünü dövlət quruculuğuna yönəltdi. Və sonda qüdrətli, yenilməz bir dövlət yaradaraq tarixdə heç vaxt pozulmayacaq dərin izlər qoydu.

Sovet dövründən Azərbaycana rəhbərlik edən Heydər Əliyevin yüksək təşəbbüskarlığı, müdrik və uzaqgörən siyasəti sayəsində ölkəmiz, sözün həqiqi mənasında, tərəqqi dövrünü yaşamışdır. Həmin illər Azərbaycanın tarixinə yüksəliş dövrü kimi daxil olub. Bir vaxtlar Azərbaycan Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan - Kremldən idarə olunurdu. Lakin Heydər Əliyev ölkəmizin inkişafı naminə, böyük çətinliklərlə də olsa, mərkəzin diqqətini, qayğısını daim məmləkətimizə yönəldə bilmişdi.

Həm bugünkü, həm də gələcək nəsillər zaman-zaman bu böyük insanın keçdiyi şərəfli həyat yolunu, zəngin irsini sətir-sətir öyrənəcəklər. O, xalqını, dövlətini çox sevirdi. Müstəqil, iqtisadi cəhətdən qüdrətli, dünya birliyinin tanıyıb hörmət etdiyi Azərbaycan kimi bir dövləti yaratmaq məhz ulu öndər Heydər Əliyevin xidmətləri sayəsində mümkün olub.

1993-cü il iyun ayının əvvəllərində ölkəmizdə gərgin vəziyyət yaranmışdı. Həmin dövrdə iqtidarda olan qüvvələrin dövlətçilik təcrübələri olmadığı üçün ölkəni idarə edə bilmirdilər. Ölkədə xaos hökm sürürdü. Yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. O günlərdə xalqın iradəli, qətiyyətli və təcrübəli dövlət xadiminə böyük ehtiyacı var idi. Azərbaycan xalqı dövləti və milləti yalnız Heydər Əliyev dühasının xilas edəcəyinə inanırdı və buna görə də bu böyük tarixi şəxsiyyətə müraciət edərək onu hakimiyyətə dəvət etdi.

Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev dövlətçilik tariximizin yeni mərhələsinin - müstəqilliyimizi əbədiləşdirən müqəddəs bir yolun başlanğıcını qoydu. Bu dahi şəxsiyyətin hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. O, heç bir dövlət başçısının öhdəsindən gələ bilməyəcəyi bir məsuliyyəti üzərinə götürdü, bu yolda böyük əziyyətlərə qatlaşaraq tarix yazdı, Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etdi.

Ulu öndərin tarixi qayıdışından sonra başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı. Orduda aparılan quruculuq işləri qısa müddət ərzində öz bəhrəsini verdi. Getdikcə güclənən Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən düşmən geri çəkildi. 1994-cü il mayın 12-də atəşkəs rejimi elan olunduqdan sonra orduda böyük islahatlar həyata keçirildi. Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdı, şəxsi heyətin döyüş ruhu yüksəldi.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Bu gün tam inamla demək olar ki, ölkəmizin müstəqilliyinin keşiyində dayanan güclü, qüdrətli ordumuz var. Bununla hər birimiz fəxr edir və öyünürük.

Təbiidir ki, belə güclü və qüdrətli ordu birdən-birə yaradılmayıb. Bunun üçün xeyli iş görülüb, səmərəli və gərgin islahatlar aparılıb. Heydər Əliyevin dövlət və xalq qarşısındakı ən başlıca xidmətlərindən biri də qısa müddətdə dağınıq vəziyyətdə olan ordumuzu vahid mərkəzdən idarə olunan monolit bir gücə, qüvvəyə çevirməsi oldu. Əbədi Ali Baş Komandanın rəhbərliyi altında az bir müddətdən sonra ordu Azərbaycan dövlətinin müstəqilliyinin təminatçısı kimi böyük və şərəflə vəzifəni yerinə yetirməyə başladı.

Silahlı Qüvvələrin quruculuğu istiqamətində həyata keçirilən uğurlu islahatlar bu gün də davam etməkdədir. Doğma ordumuz getdikcə güclənir, onun sıralarında xidmət edən zabit və əsgərlər döyüş hazırlıqlarını daha da artırırlar. Artıq erməni qəsbkarları hiss edir ki, qarşısında güclü, qüdrətli, döyüş hazırlığı yüksək olan Azərbaycan əsgəri dayanıb.

**Ədliyyə mayoru**
**Elnur KƏRİMOV**

# Azərbaycan Respublikasının Baş naziri Hərbi Hava Qüvvələrinin hərbi hissələrində olub

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, respublikanın Baş naziri Artur Rasizadə Hərbi Hava Qüvvələrinin hərbi hissələrində olub.***





Yeni tikilən və tam təmir olunan qərargah və döyüş növbəsinin aparılması binalarına, start-komanda məntəqəsinə, əsgər yataqxanasına, uçuş-texniki heyət və əsgərlər üçün nəzərdə tutulan yeməkxanalara, hamam-camaşırxana-qazanxana kompleksinə, nəzarət-buraxılış məntəqəsinə və sıra meydanına baş çəkilib və orada yaradılan şəraitlə tanış olunub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar Silahlı Qüvvələrin döyüş hazırlığının daha da gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri xüsusi vurğulayıb.

Uçuş-texniki heyəti ilə görüşən Baş nazir cənab A.Rasizadə aviabazanın ərazisində aparılan işlərdən məmnun qaldığını, bundan sonra da bu istiqamətdə fəaliyyətlərin davam etdiriləcəyini bildirib və şəxsi heyətin sosial-məişət şəraitinin həlli üçün müvafiq tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**







***Silahlı Qüvvələrimizin gündəlik fəaliyyətində və döyüş potensialında öz yeri, öz çəkisi olan artilleriyaçılarımızın peşəkarlığı günü-gündən artmaqdadır. Böyük ənənələri olan topçularımız döyüş hazırlığı sahəsində yeni-yeni nailiyyətlər qazanırlar. Onlarla görüşə hər dəfə həvəslə getmişəm. Bu dəfə də yönümüz cəbhə xəttinə yaxın ərazidə yerləşən artilleriya hissələrimizdən birinə düşdü.***

*Döyüş hazırlığı*

# Artilleriyaçılar peşəkarlığı günü-gündən artırırlar

Bu hərbi hissə Silahlı Qüvvələrimizin artilleriya qoşunları arasında yüksək döyüş hazırlığına malik nümunəvi hərbi kollektivlərdəndir.

- Bütün hərbi hissələrdə olduğu kimi, bizim də qarşımıza qoyulmuş başlıca vəzifə döyüş hazırlığı tədbirlərini vaxtında və dəqiq yerinə yetirməkdən ibarətdir, - bizimlə söhbətdə zabit Səxavət Əmirov bildirdi. - Şəxsi heyət Müdafiə Nazirliyinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq dərs və məşğələlərdə iştirak edir, öz bilik və vərdişlərini dərinləşdirir. Gənc artilleriyaçılar bu məşğələlərdə bacarıqlı zabitlərin rəhbərliyi altında ixtisas, taktiki və atış hazırlıqlarını artırır, silahların taktiki-texniki xüsusiyyətlərini həvəslə öyrənirlər.

Hərbi hissədə nümunəvi bölmələrdən söhbət düşəndə özüyeriyən artilleriya divizionu örnək kimi göstərilir. Və biz qeydlər götürmək üçün döyüş və mənəvi-psixoloji hazırlığı ilə seçilən bölməyə yola düşdük.

Özüyeriyən artilleriya divizionunun şəxsi heyəti döyüş hazırlığı məşğələsində iştirak edirdi. Əsgərlər təcrübəli qrup rəhbərlərinin nəzarəti altında döyüş vərdişlərini artırmaqla məşğul idilər.

Mayor Rauf Şirinovu komandiri olduğu bölmənin yanında gördük. O, artilleriyaçıların döyüş bacarığının



yüksəldilməsi barədə danışarkən dedi:

- Gündəlik ixtisas və texniki hazırlıq dərslərini burada, park ərazisində müəyyən edilmiş tədris nöqtələrində keçirik. Atışın idarə edilməsi və kompleks məşğələlər, batareyanın və divizionun taktiki təlimləri döyüş hazırlığı planına uyğun təlim mərkəzində keçirilir. Yəni döyüş hazırlığı planında nəzərdə tutulmuş kompleks tədbirlərin hamısı qrafikə uyğun aparılır.

Texnikaya gəlincə, özüyeriyən artilleriya qurğularının hamısı saz və döyüşə hazır vəziyyətdədir. İstənilən zaman həyəcan siqnalı ilə divizion cəmləşmə rayonuna çıxmağa və döyüş aparmağa qadirdir. Burada əsas vəzifələri peşəkar hərbçilər - gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçular tuturlar. Bu da döyüş hazırlığının yüksəlməsinə bilavasitə təsir göstərən amillərdəndir.

- Bizim zabitlərin hamısı nümunəvidir, - zabit Rauf Şirinov söhbətinə davam edir. - Bölməmizin döyüş hazırlığı sahəsində əldə etdiyi uğurlar bütün kollektivin zəhməti hesabına qazanılır. Bununla belə nümunəvi zabitlərdən batareya komandiri kapitan Namiq Əzizovu, taqım komandirləri Tural Abdullayevi və Rabil Xəlilovu qeyd etmək ədalətli olardı.

Biz bölmədə olarkən kapitan Namiq Əzizovla da görüşüb söhbət etdik. O, 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini artilleriyaçı ixtisası üzrə bitirib. Zabit kimi müxtəlif hərbi hissələrdə xidmət edib. Hazırda burada batareya komandiridir. Maraqlıdır, kapitan Əzizov hərbi hissənin yaradıldığı gündə doğulub və hərbi hissənin ildönümünü ad günü ilə eyni vaxtda qeyd edir. O, bizimlə söhbətində dedi:

- Bölməmizin döyüş hazırlığı arzuolunan səviyyədədir. Bildiyiniz kimi, bizim bölmələr çevik bölmələr hesab edilir. Yəni, istənilən vaxt istənilən ərazidə döyüşə başlamaq iqtidarındadır. Hazırda bölməmizdə müddətdən artıq xidmət edən hərbi qulluqçuların sayının artırılması döyüş hazırlığının keyfiyyətinə xeyli təsir göstərib. Onlar öz vəzifələrinə əsgər kimi deyil, peşəkar münasibət göstərməyə borcludurlar. Əvvəllər əsgərləri xidmət müddətində öyrədirdik və müddət başa çatdıqda ordudan tərxis olunurdular. Proses yeni əsgərlərlə yenidən başlanırdı. İndi bunlar uzunmüddətli xidmət edirlər və getdikcə də öz ustalıqlarını artırırlar.

Hər bir heyətdə də vəzifə bölgüsü, tələbkarlıqla yanaşı, bir dostluq, kollektivçilik olmalıdır. Əslində hamı bir nəfər üçün, bir nəfər isə hamı üçün mübarizə aparmağı bacarmalıdır. Belə olan halda silahdaş silahdaşa çiyin də söykəyir, onun köməyini hiss edir, döyüşə də ürəklə gedir. "N" hərbi hissəsində olarkən belə bir kollektivlə tanış olduq. Daha doğrusu, batareya komandiri kapitan Namiq Əzizov bir özüyeriyən artilleriya qurğusunun heyətini nümunəvi bölmə kimi bizə təqdim etdi.

- Şamxal Qasımov bacarıqlı, işinə həmişə vicdanla yanaşan gizirlərimizdəndir, - batareya komandiri dedi. - O, heyət üzvlərinin arasında mehriban və səmimi münasibət qurmağı bacarıb. Bu da öz növbəsində heyətin döyüş hazırlığına müsbət təsirini göstərib. Hazırda özüyeriyən artilleriya qurğusunun heyəti hərbi hissəmizin ən bacarıqlılarındandır.

Gizir Şamxal Qasımov bacarıqlı, hazırlıqlı və intizamlı heyət başçısıdır. Əslən Daşkəsən rayonundan olan Şamxal əsgəri xidmətini Naxçıvanda keçirib. Vətənə xidməti özünə peşə seçib və artıq 6 ildir ki, gizir kimi artilleriya bölməsində xidmət edir.

Onun komandiri olduğu heyət döyüş hazırlığı dərslərində, atışlarda və təlimlərdə həmişə fərqlənir. Bu heyətin döyüş maşını daim saz və səfərə hazır vəziyyətdədir. Komandirin özü texnikaya qarşı çox diqqətlidir və ona lazımi texniki qulluğun göstərilməsini daim nəzarətdə saxlayır.

"Döyüşə!" komandası verilən kimi heyət üzvləri də özüyeriyən artilleriya qurğusunda öz yerlərini tutdular. Tez bir zamanda sürücü-mexanik mühərriki işə salıb texnikanı "səfər" vəziyyətinə gətirdi. Artıq heyət komanda verilsə, istənilən əraziyə çıxmağa, düşmənə mərmilər yağdırmağa hazır idi.

- Artilleriyaçı olmaq şərəfli peşədir, - gizir Qasımov deyir. - Təsadüfi deyil ki, hər zaman artilleriyanı müharibənin Allahı hesab edirlər. Bizim heyət də bölməmizin hazırlıqlı döyüşçülərindən ibarətdir və həmişə döyüşə hazırdır. Mən artilleriyaçı olmağı özümə şərəf hesab edirəm.

Bölmənin nümunəvi hərbi qulluqçularından sayılan kiçik çavuş Sübhan Alıyev 2000-2002-ci illərdə əsgər kimi Vətənə övladlıq borcunu verib. Sonradan yenə də ordu sıralarında xidmət etmək qərarına gəlib və müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmətə başlayıb.

- Xidmətimiz qaydasında gedir, - kiçik çavuş bizimlə söhbətində dedi. - Özüyeriyən artilleriya qurğusuna əlimiz yatır və istənilən zaman onu döyüşə aparmağa hazırıq. Döyüş hazırlığı dərslərində texnikanı müxtəlif ərazilərdə gecə və gündüz idarə edirik, maneələri dəf edirik, bir sözlə, döyüş təcrübəmizi artırırıq.

Əsgər Yusif İsmayıllı əslən Tərtər rayonundandır. O, peşəkar döyüşçülərin arasında özünü çox arxayın hiss edir və öz vəzifəsini vicdanla yerinə yetirməyə çalışır. Bir ildən artıqdır ki, Vətənə əsgəri borcunu verir.

Yuxarıda qeyd etdiyim kimi, özüyeriyən artilleriya divizionunda döyüş hazırlığının səviyyəsi komandanlıq tərəfindən yüksək qiymətləndirilib. Ən yaxşı bölmələr adı uğrunda yarışlarda adətən divizionun şəxsi heyəti tərəfindən uğurlu nəticələr göstərilib. Bu uğurda kapitan Namiq Əzizovun komandiri olduğu bölmənin də öz payı var.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Erməni kəşfiyyat-təxribat qrupları məhv edilib

Dekabrın 8-də axşam saatlarında cəbhənin cənub istiqamətində erməni kəşfiyyat-təxribat qrupları təmas xəttini keçməyə cəhd göstəriblər.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı, düşmənin yaxınlaşmasının əvvəlcədən aşkar edilməsi və görülən qabaqlayıcı tədbirlər nəticəsində şiddətli atışma zamanı çoxsaylı itki verən ermənilər geri çəkilməyə məcbur edilib.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən heç bir itki yoxdur, cəbhəboyu vəziyyətə tam nəzarət edilir.

## Hərbi maşın minaya düşüb

Hərbi maşının minaya düşməsi nəticəsində 1980-ci il təvəllüdlü, Qazax rayonundan hərbi xidmətə çağırılmış, Silahlı Qüvvələrimizin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Qurbanov Qoşqar Məqsəd oğlu həlak olub.

Digər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şahvələdov Eşqin Alı oğlu isə yaralanıb.

Yaralı əsgərə ilkin tibbi yardım göstərildikdən sonra hərbi tibb müəssisəsinə təxliyyə edilib. Hazırda əsgərin vəziyyəti kafidir, o, həkimlərin nəzarəti altındadır.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Dekabrın 8-dən 12-dək Oberammerqau şəhərində (Almaniya) NATO resursların idarə olunması üzrə təhsil proqramı kursu; dekabrın 8-dən 19-dək Ankara şəhərində (Türkiyə), 20-dək isə Bakı şəhərində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Türkiyə Quru Qoşunları Məktəbi arasında müəllim mübadiləsi; dekabrın 9-dan 12-dək Bakı şəhərində dənizdə mühüm enerji infrastrukturunun mühafizəsi üzrə fəaliyyət planı; əməliyyat ssenarisi və prosedurların işlənib hazırlanması mövzusunda növbəti seminar; dekabrın 10-dan 12-dək isə Brüssel şəhərində (Belçika) tərəfdaşlar arasında informasiyanın canlı idarə edilməsi sistemi (ePRIME) kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***9 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 57 dəfə pozulub.

Erməni silahlı bölmələri Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

# Orduda tərbiyə işi müasir tələblərə uyğun olmalıdır

## Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabitlərin toplantısı keçirilib

***Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının və döyüş ruhunun artırılması məqsədi ilə mütəmadi olaraq hərbi hissə və birləşmələrdə, hərbi tədris müəssisələrində səmərəli tədbirlər həyata keçirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, bu günlərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissə və birləşmələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit heyəti ilə təlim-metodik toplantının keçirilməsi də bu zərurətdən irəli gəlmişdi.***



Təlim-metodik toplantını Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Nağı Eyvazov açaraq iştirakçıları salamladı.

Polkovnik Abdulla Qurbani metodik-toplantının iş planı ilə iştirakçıları tanış etdikdən sonra şəxsi heyətin döyüş ruhunun artırılması və ordunun ictimaiyyətlə əlaqələrinin daha da sıx olması üçün bölgələrdə və hərbi hissələrdə keçirilən müxtəlif tədbirlərdən ətraflı söz açdı. Bildirdi ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun çıxışları biz zabitlər üçün proqram xarakteri daşıyır. "Biz hərbi hissə və birləşmələrdə işlərimizi rəhbərliyinin irəli sürdüyü tələblərə uyğun qurmalıyıq. Şəxsi heyətin döyüş və hərbi vətənpərvərlik ruhunu artırmaq üçün səmərəli işlər görülür və bu işlər müntəzəm olaraq davam etdirilir. Bütün təlim-tərbiyə işlərini günün tələbləri səviyyəsində qurmalıyıq".

Polkovnik çıxışına davam edərək ulu öndər Heydər Əliyevin zəngin irsinin Silahlı Qüvvələrin şəxsi heyəti tərəfindən dərindən öyrənilməsinin vacib olduğunu zabitlərin diqqətinə çatdırdı. Və bu istiqamətdə dəyərli məsləhət və tövsiyələrini onlarla bölüşdü.

Sonra zabit Rüfət İsmayılov "İnformasiya təhlükəsizliyi və qorunması" mövzusunda çıxış etdi. O, çıxışında müasir avadanlıqlarla davranış qaydaları barədə tədbir iştirakçılarını ətraflı məlumatlandırdı. Sonra zabit bu və ya digər suallara aydınlıq gətirdi.

Zabit Elçin Kərimov şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində hərbi hissə və birləşmələrdə görülən işlər barədə tədbir iştirakçılarına məlumat verdi. Bəzi hərbi hissələrin qabaqcıl təcrübəsinin geniş yayılmasının vacibliyini vurğuladı.

Zabit Rasim Manafov isə çıxışında dekabr ayının 23-də keçiriləcək bələdiyyə seçkilərinə hazırlıqdan danışdı, hərbi hissə və birləşmələrdə seçkilərlə bağlı mühüm hazırlıq işlərinin aparıldığını toplantı iştirakçılarının diqqətinə çatdırdı. Bildirdi ki, həmişə olduğu kimi, zabit və əsgərlər bu dəfə də bələdiyyə seçkilərində fəal iştirak edəcəklər.

Sonra Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev toplantıda çıxış edərək əsgərlərin təlim-tərbiyəsini yüksək səviyyəyə qaldırmaq üçün zabitlərin qarşısında mühüm vəzifələrin durduğunu söylədi, onlara lazımi məsləhət və tövsiyələrini verdi.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı çıxışında kütləvi informasiya vasitələri ilə düzgün iş aparılmasından, hərbi sirlərin qorunmasından və başqa vacib olan amillərdən ətraflı danışdı. Toplantıda iştirak edən zabitlər polkovnikə suallarla müraciət etdilər. Mətbuat Xidmətinin rəisi verilən sualları yetərincə geniş cavablandırdı.

Şəxsi heyətlə iş üzrə zabit heyəti ilə təlim-metodik toplantı öz işini bir neçə gün davam etdirəcək. Belə səmərəli tədbirlər, şübhəsiz ki, şəxsi heyətlə işlərin günün tələbləri səviyyəsində qurulmasına töhfə verəcəkdir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Xalqımız müharibə şəraitində olduğunun fərqindədir



***Ulu öndər Heydər Əliyevin irsi Azərbaycan xalqının milli sərvətidir. Zənnimizcə, zəmanəmizin dühası olan Heydər Əliyevin xalqımızın qarşısında tarixi xidmətləri belə deməyə əsas verir. O, ölkə həyatının bütün sahələrində inkişaf və tərəqqinin banisi və ilhamçısı olmuşdur. Xüsusilə ümummilli liderin ordu quruculuğu sahəsindəki fəaliyyəti dövlətimizin bugünkü etibarlı təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, ölkəmizin nə zamansa müstəqillik yoluna qədəm qoyacağını öncədən görən ulu öndər Azərbaycanın hərb sənətini yenidən dirçəltmək və müstəqil dövlətin Silahlı Qüvvələri üçün yüksək ixtisaslı milli zabit kadrlarının hazırlanması üçün əlindən gələni əsirgəməmişdi. Hələ 1970-ci illərdə yüzlərlə azərbaycanlı gənc, keçmiş SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına göndərilmiş, milli hərbi kadrların hazırlanması üçün hər cür qayğı göstərilmişdi.***

Son illər ordu quruculuğu sahəsində aparılan genişmiqyaslı islahat və dəyişikliklər əldə olunan uğurların dinamikasını xeyli artırmış, Azərbaycan Silahlı Qüvvələrinin simasını kökündən dəyişmişdir. Bir vaxtlar ayrı-ayrı adamların şəxsi maraqlarına, siyasi ambisiyalarına xidmət edən başıpozuq, nizamsız silahlı dəstələrdən bu gün əsər-əlamət qalmayıb. Bu dəstələrin qısa zaman kəsiyində vahid bir mərkəzdə birləşdirilməsi, insanlarımızın əqli və fiziki imkanlarının ümumi mənafeyimizdən irəli gələn məsələlərə yönəldilməsi, heç şübhəsiz, ümummilli liderimiz Heydər Əliyevin parlaq zəkasının, siyasi uzaqgörənliyinin təntənəsi və təbii nəticəsi idi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna bu gün xüsusi diqqət və qayğı göstərir. Dövlət başçısı tərəfindən yeni Müdafiə nazirinin təyin olunması ordu sıralarında olduğu kimi, cəmiyyətdə də ruh yüksəkliyi yaratdı. Hər kəs başa düşür ki, komandir təcrübəli və səriştəli olduqda qələbə daha asan qazanılır. General-polkovnik Zakir Həsənovun orduda apardığı islahatlar cəmiyyətdə Silahlı Qüvvələrə olan münasibəti xeyli dəyişdirdi. Aparılan genişmiqyaslı təlimlər ordumuzun gücünü bütün dünyaya bəyan etdi.

Azərbaycan xalqı müharibə şəraitində olduğunun fərqindədir. Artıq ölkə əhalisi mənəvi və psixoloji cəhətdən torpaqlarımızın azad edilməsi üçün Ali Baş Komandanın qəbul edəcəyi istənilən qərarların icrasına hazırdır. Hər birimiz öz gücümüzlə Silahlı Qüvvələrimizin yanındayıq. Əli silah tutan hər kəs düşmən üzərinə yeriməyə, torpaqlarımızı azad etməyə hazırdır.

Sonda bir məqamı xüsusi vurğulamaq istərdim ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycan Ordusu bu gün cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək dünya orduları sırasında öz layiqli yerini tutmaqdadır. Bu baxımdan medianın, kütləvi informasiya vasitələrinin ordu quruculuğunda rolu çox önəmlidir. Burada məsələnin ana xəttini informasiyanın dəqiqliyi, cəmiyyət üçün əhəmiyyəti təşkil etməlidir. Bəzi məlumatların məxfiliyi isə məsələnin digər vacib tərəfidir. Yalnız aidiyyəti qurumun verdiyi informasiyalara əsaslanmaq daha məqsədəuyğundur.

**Səbuhi ABBASOV**

# Xarici ölkələrin hərbi attaşeləri ilə illik toplantı keçirilib



***Dekabrın 9-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində xarici ölkələrin hərbi attaşeləri ilə illik toplantı keçirilib.***

Toplantını Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov açaraq təqdim olunacaq məsələlər barəsində məlumat veib.

Sonra polkovnik-leytenant Murad Zeynalov "Uzadılmış konflikt və regional təhlükəsizlik" mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində regionda təhlükəsiz mühitin formalaşdırılmasını təhdid edən amilləri, münaqişənin həlli yolarını qonaqların diqqətinə çatdırıb.

Toplantının ikinci hissəsində general-mayor Hüseyn Mahmudov "Müdafiə islahatları" mövzusunda məruzə ilə çıxış edib. O, çıxışında milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi ilə bağlı fikir və mülahizələrini bildirib.

Toplantının sonunda general-mayor Hüseyn Mahmudov suallara aydınlıq gətirib.

**"Azərbaycan Ordusu"**

# Bacarıqlı tank heyəti döyüşə hazırdır

***Budəfəki səfərimiz okean səviyyəsindən 300 m hündürlükdə, Ağstafa çayının sağ sahilində yerləşən müasir, gündən-günə gözəlləşən Ağstafa rayonunadır. Rayon Azərbaycan Respublikasının şimal-qərb hissəsində Böyük və Kiçik Qafqaz sıra dağlarının arasında, Gəncə-Qazax maili düzənliyində yerləşir. Əlverişli təbii-coğrafi mövqedə yerləşən rayon təkcə Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqazda ən qədim insan məskənlərindən biridir.***

Həmişə deyirlər ki, Ağstafanın maraqlı təbiəti var. Doğrudan da, deyilənlər gerçək imiş. Səhər vaxtı yağan yağış və soyuq hava artıq bu torpaqlara qışın ilk xəbərini gətirib.

Qatardan düşən kimi bizi gözləyən polkovnik-leytenant Şövqi Məmmədovu görürük. Salamlaşıb, hal-əhval tuturuq. Uzun yoldan gəldiyimizi, havanın soyuq olduğunu deyən zabit bizi avtomobilə dəvət edir. Yola düşürük. Yol boyu Ş.Məmmədov ilə söhbətləşir, həmçinin ətrafa diqqət edirəm. Bakıdan yüz kilometrlərlə uzaqda yerləşən rayonda asfalt yollar salınıb, təmir-tikinti işləri aparılıb.

Şövqi Məmmədov yol uzunu son illər dövlət rəhbərliyi tərəfindən Silahlı Qüvvələrə göstərilən diqqət və qayğıdan ağızdolusu danışır.

- Doğrudan da, son zamanlar Azərbaycanda ordu quruculuğu inkişaf edir. Hazırda müasir silah və hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş hazırlığına malik ordumuz var. İqtisadiyyatımızda əldə olunan nailiyyətlər ordumuzun təchizatının yaxşılaşdırılmasına gətirib çıxarır. Təkcə onu xatırlamağa dəyər ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğu məsələsini dövlətin prioritet vəzifəsi elan etmişdir. Bunun nəticəsidir ki, ordumuz qısa müddətdə böyük inkişaf yolu keçmişdir, - deyə təcrübəli zabit Ş.Məmmədov bildirir.



Qərargahda təcrübəli zabitlərdən olan polkovnik İlqar Lətifovla görüşürük.

Onun sözlərinə görə, bölmələrin döyüş hazırlığı ordu rəhbərliyi üçün ən önəmli məsələlərdəndir. Döyüş hazırlığı və bu qəbildən olan digər məsələlər Müdafiə naziri general-polkovnik Zakir Həsənovun daim diqqət mərkəzindədir. Hörmətli nazirimizin vaxtaşırı cəbhə bölgəsində yerləşən hərbi hissələrə baş çəkməsi bunun əyani sübutudur.

Yorğun və yuxusuz olmağımıza baxmayaraq tankçılarımızın yanına can atırıq. Bizi bölük komandiri kapitan Rəşad Atakişiyev qarşılayır. Hal-hazırda texnikalara qulluq edildiyini bildirən zabitlə vaxt itirmədən tankların yanına gedirik. Söhbət etdiyimiz zaman məlum olur ki, R.Atakişiyev doğmalarının yolunu davam etdirərək ordu həyatına bağlanıb.

Zirehli texnikanı və onun qayğısına qalan şəxsi heyəti gördükdə ümummilli liderimiz Heydər Əliyevin dediyi "Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır" sözlərini xatırlayıram. Əslində məğrur Azərbaycan əsgəri ən çətin bölgələrimizdə də Vətənə övlad borcunu şərəflə ödəyir, qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlir. R.Atakişiyevlə söhbətimiz əsgərlər və hərbi texnika haqqındadır. Bölük komandiri bildirir ki, bu gün ön xətdə xidmət edən şəxsi heyətin bütün qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir.

- Əsgərlərin məişətinə, qidalanmasına ciddi önəm verilir, - deyir bölük komandiri. - Hərbi hissəmizdə peşəkar döyüşçü olmaq üçün hər bir şərait yaradılıb. Savadlı və təcrübəli zabitlərimiz var. Onlar bildiklərini əsgərlərə öyrətməyə can atırlar.

Bölük komandirinə görə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Hər kəs Vətənimizin müdafiəsində iştirak etməyin mənəvi məsuliyyətini aydın dərk edir və bu vəzifəni yerinə yetirməsindən qürur duyur.

Yaradılan yüksək şəraitə görə razılığı tankçılarımızın dilindən də eşidirəm. Ağstafa rayonundan olan müddətdən artıq hərbi xidmət qulluqçusu Həsənəli Hüseynov söhbətimizdə deyir ki, indi əşya-ərzaq təminatı baxımından heç bir çatışmazlıq yoxdur. Hər zaman döyüşə hazıram. Bizə göstərilən bu diqqət isə hər birimizi nümunəvi xidmət etməyə ruhlandırır.

Növbəti həmsöhbətlərim olan gizirlər Elçin Babayev və Həsən Cəfərov da komandanlıq tərəfindən onlara göstərilən diqqət və qayğıdan danışırlar.

- Ordumuzun müasir tələblər səviyyəsində qurulması üçün ayrılan vəsait hesabına hərbi hissələrimizdə də böyük dəyişikliklər baş verib, - deyirlər. - Və bu dəyişikliklər nəticəsində ordunun döyüş texnikası və avtomobil parkı yenilənib.

Sonda kapitan Rəşad Atakişiyev 2015-ci ilin may ayında Rusiya Federasiyasında tankçıların yarışında iştirak edəcəklərini bildirir. Bu sevindirici xəbərdən bir az da ruhlanır və tankçılara uğurlar arzulayıb xoş təəssüratla hərbi hissədən ayrılırıq...

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Namiq ARİFOĞLUNUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Rusiya və Fransa prezidentləri Ukrayna böhranını müzakirə ediblər



Rusiya prezidenti Vladimir Putin fransız həmkarı Fransua Ollandla şənbə günü apardığı danışıqlardan razı qalıb. Moskvanın Vnukovo-2 aeroportunda keçirilən planlaşdırılmamış görüş iki saat çəkib. TASS agentliyi xəbər verir ki, Ukrayna böhranını müzakirə edən prezidentlər atəşin dərhal dayandırılması mövqeyindən çıxış ediblər. Fransua Olland da öz növbəsində görüşün yekunları barədə danışarkən bildirib ki, Ukraynada böhranın nizamlanması üçün bütün imkanlardan istifadə etmək lazımdır.

## Ukrayna ordusu itki verib



Ukraynanın şərqində hökumət qüvvələri ilə separatçılar arasında döyüşlər zamanı tələfat olub.

Ukraynanın ordu sözçüsü Andriy Lısenko son 24 saat ərzində 6 əsgərin həlak olduğunu, 14-nün isə yaralandığını bildirib. Sentyabrda tərəflər arasında atəşkəsə dair Minsk razılığı əldə edilməsinə baxmayaraq, döyüşlər səngimək bilmir. Atəşkəsin pozulmasında tərəflər biri digərini ittiham edir.

Ukrayna prezidenti Petro Poroşenkonun veb səhifəsində dekabrın 9-da "Sükut günü" elan ediləcəyi, yəni qüvvələrin atəşi dayandıracağı bildirilib.

## İŞİD silahlıları İraqın Anbar əyalətində 16 nəfəri qətlə yetirib



İŞİD silahlıları İraqın qərbindəki Anbar əyalətində 16 nəfəri qətlə yetirib. APA-nın BBC-yə istinadən verdiyi xəbərə görə, öldürülən şəxslərin hamısı Albu Nimb sünnü qəbiləsinin nümayəndələri olub. Qəbilənin başçısı bildirib ki, öldürülənlərin meyitləri Hit şəhərində quyuya atılıb. Qeyd edək ki, son bir neçə ay ərzində İŞİD silahlıları hökumət qüvvələrini dəstəkləyən Albu Nimb qəbiləsinin qadın və uşaq olmaqla yüzlərlə üzvünü qətlə yetirib.

## Nigeriyada göyərtəsində silah-sursat olan Rusiya təyyarəsi saxlanılıb




Nigeriya ordusu göyərtəsində çoxlu silah-sursat olan Rusiyaya məxsus yük təyyarəsinin saxlanıldığını bildirib. APA-nın BBC-yə istinadən verdiyi xəbərə görə, sənədləşdirilməmiş silah Mərkəzi Afrika Respublikasından (MAR) Çada aparılacaqmış.

Yerli KİV-lərin məlumatına görə, təyyarə MAR-ın paytaxtı Banqidən havaya qalxaraq Çadın paytaxtı Ncamenu şəhərinə istiqamət alıbmış.

Hava gəmisinin göyərtəsində lazımi qaydada sənədləşdirilməmiş hərbi texnikanın olduğu bildirilir.

Təyyarə Nigeriyanın şimalındakı Kano şəhərinin aeroportunda saxlanılır, ekipajın bütün üzvləri həbs olunub. Faktla bağlı istintaq aparılır.

## İstanbulda türkmənlərlə bağlı toplantı keçirilib




İstanbulda "Suriya həqiqətində Orta Şərq türkmənləri" mövzusunda toplantı keçirilib. APA-nın Türkiyə bürosunun verdiyi məlumata görə, Türk Dünyası Araşdırmaları Vəqfi Süleymaniyyə Kürsüsünün təşkil etdiyi toplantıda çıxış edən Milliyyətçi Hərəkat Partiyasınıdan olan millət vəkili Məhmət Şandır bölgədə türk mənşəlilərin etnik təmizləməyə məruz qoyulduğuna diqqəti cəlb edib.

MHP millət vəkili Türkiyədəki digər siyasi qüvvələri və QHT-ləri Orta Şərq bölgəsində türk kimliyinin qorunub saxlanmasında əməkdaşlığa çağırıb.

Qeyd edək ki, Süleymaniyyə Kürsüsü 1989-cu ildə Türk Dünyası Araşdırmaları Vəqfinin qurucu başqanı, professor Turan Yazqan tərəfindən yaradılıb. Kürsü hər həftənin şənbə günü toplantılar keçirir, gündəmdəki məsələləri müzakirə edir.

## Ermənistan ordusunda güllələnmə



Ermənistan mətbuatının yaydığı məlumata görə, baş leytenant Qazaryan müqavilə əsasında xidmət edən erməni muzdlu Karen Ananyanı güllələməkdə ittiham edilir.

Məlumata görə, Ermənistanın hərbi hissələrindən birində baş leytenant Qazaryanla sıravi əsgər Saribekyan arasında mübahisə düşüb. Bundan sonra baş leytenant avtomat silahı götürərək ətrafa nizamsız atəş açmağa başlayıb. Güllələrdən biri muzdlu Ananyana dəyib. Təcili hospitala çatdırılan muzdlu əməliyyat edilib. Erməni baş leytenanta tabeliyində olan hərbi qulluqçularla kobud davranma və onlara qarşı silah işlətmə maddəsi ilə cinayət işi açılıb.

## "Grammy Awards" mükafatına namizədlər elan olundu



ABŞ-ın Los-Anceles şəhərində musiqi dünyasının ən nüfuzlu mükafatlarından biri olan "Grammy Awards"a namizədlər elan olunub. Mükafat ABŞ-ın Milli İncəsənət Akademiyası tərəfindən yüksək musiqi nailiyyətinə görə təqdim olunur. AzərTAc xəbər verir ki, bu il namizədlərin adları gün ərzində CBS kanalı ilə elan edilib. "Grammy Awards" mükafatının 57-ci təqdimetmə mərasimi Los-Anceles şəhərindəki 21 min tamaşaçı tutumuna malik "Stepls" idman və əyləncə kompleksində keçiriləcək.

Qeyd edək ki, bu mükafatın ilk təqdimatı 1959-cu il mayın 4-də Frenk Sinatranın aparıcılığı ilə keçirilmişdi.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş tədbir keçirilib

***"Xidmət etdiyim diyar" tədbirlər silsiləsindən Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası" mövzusunda tədbir keçirilib.***





Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin təşkilatçılığı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Sonra Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mirqiyas Rüstəmov çıxış edərək bildirib ki, 7 sentyabr 1991-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında tarixi qərar qəbul edildi.

15 sentyabr 1992-ci ildə həmin Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradıldı. Həmin briqada motoatıcı diviziyaya, daha sonra Ordu Korpusuna, 2013-cü ildə isə Əlahiddə Ümumqoşun Ordusuna çevrildi. Tam əminliklə deyə bilərik ki, düşmənin qorxulu kabusuna çevrilən Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyəti muxtariyyətin 90-cı ilində də ən çətin tapşırıqların öhdəsindən layiqincə gəlib və Naxçıvan Muxtar Respublikasının müdafiəsini etibarlı təmin edib. Bu şərəfli ənənə bundan sonra da qətiyyətlə davam etdiriləcək.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Tarix-Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Fəxrəddin Səfərli "Ümummilli lider Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası" mövzusunda məruzə edib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli və başqa çıxış edənlər qeyd ediblər ki, Azərbaycanda güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı məhz ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Yaxın keçmişə nəzər salsaq, görərik ki, Azərbaycanda dövlət və ordu quruculuğu prosesinə ulu öndərimizin rəhbərliyi ilə Naxçıvanda başlanılıb.

Sonda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivinin bədii proqramla çıxışı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### "Bakı-2015"-in açılış mərasimi üçün könüllü ifaçıların seçiminə başlanıb



"Bakı-2015" ilk Avropa Oyunlarının açılış mərasimi möhtəşəm idman şousu olacaq. Bakı Olimpiya stadionunda keçiriləcək açılış mərasimində şounun ifaçısı olmaq üçün könüllülərin seçim prosesi başlayıb. AzərTAc xəbər verir ki, bu barədə mətbuat konfransında "Bakı-2015" ilk Avropa Oyunları Əməliyyat Komitəsinin kommunikasiya şöbəsinin direktoru Uilyam Lui-Mari məlumat verib. Qeyd edilib ki, açılış mərasimində Azərbaycanı təmsil etmək üçün təxminən 6 min könüllü ifaçıya şans veriləcək. Dünya səviyyəsində möhtəşəm tamaşanın əsas mövzusu Azərbaycan xalqı və onun zəngin mədəniyyəti, incəsənətidir.

### Əlizadə və Aslanov qələbə qazandılar




Rusiyanın Beloyarski şəhərində Sibirdə nefti kəşf edən həmyerlimiz Fərman Salmanovun xatirəsinə həsr olunmuş Boks üzrə Neft Ölkələrinin Dünya Kuboku yarışına start verilib. Apasport.az saytının məlumatına görə, turnirdə yerli idmançılarla yanaşı, 14 ölkənin idmançıları iştirak edirlər. Yarışın birinci günündə Salman Əlizadə (49 kq) və Ramal Aslanov (69 kq) növbəti mərhələyə vəsiqə qazanıblar. Avropa çempionu Əlizadə Rusiya idmançısı Andrey Potemkini məğlub edib. Aslanov isə ilk görüşdə Moldovanı təmsil edən Kamran Nazarovu texniki nokautla üstələyib.

### Azərbaycan taekvondoçuları Rusiyada keçirilən yarışda 9 medal qazanıblar



Kabardin-Balkar Respublikasının paytaxtı Nalçikdə keçirilən ənənəvi VII beynəlxalq "Cup of Elbrus" turniri başa çatıb. Yarışda ölkəmizi Sumqayıt şəhər Olimpiya və İdman kompleksinin 21 idmançısı təmsil edib. Uğurlu çıxış edən təmsilçilərimiz 4 qızıl, 1 gümüş və 4 bürünc medalla Vətənə qayıdıblar. Baş məşqçi Vurğun Cəfərovun rəhbərliyi ilə gənclər arasında Fizam Mehdiyev (55 kq), yeniyetmələr arasında Xanoğlan Kərimov (33 kq) və Mehriban Məmmədova (41 kq), uşaqlar arasında isə Röya Süleymanova (26 kq) rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

### İdmançılarımız birinci oldular



İdmanın kosiki-karate-do növü üzrə Azərbaycanın yığma komandası Litvanın Panevejiz şəhərində keçirilən açıq Avropa kubokunda birinci yeri tutub.

Azərbaycan Kosiki-Karate-do Federasiyasının prezidenti, əməkdar məşqçi Talıb Berziqiyarov AzərTAc-a bildirib ki, yarışda kişilərdən ibarət komandamız (Nazim Mövsümzadə, Renat Kuper, Asiman Namazov) bunkay-kumite yarışında birinci yerə layiq görülüb.

Şəxsi hesabda kata üzrə mübarizədə Nazim Mövsümzadə (73,5 kq) birinci, Asiman Namazov (73,5 kq, 16-17 yaşlılar arasında) üçüncü olublar. Kumite üzrə yarışda isə İlyas Əliyev ( 82 kq) və Renat Kuper (63,5 kq) birinci, Asiman Namazov ikinci, Nazim Mövsümzadə isə üçüncü yeri tutublar.

### "Qarabağ" və "Neftçi" sülh bağladı



Topaz Premyer Liqasında XV turun oyunları keçirilib. Apasport.az saytının məlumatına görə, bütün qarşılaşmalar eyni gündə baş tutub. Turnir cədvəlinin lideri "Qarabağ" Tofiq Bəhramov adına respublika stadionunda "Neftçi"ni sınağa çəkib. 3 oyundur qələbə qazana bilməyən paytaxt təmsilçisinin son çempionla xal fərqini azaltmaq istəyi reallaşmayıb. Qarşılaşma 0:0 hesabı ilə başa çatıb.

"Sumqayıt" - "Simurq" görüşündə hesabda geri düşən "Gənclər şəhəri" təmsilçisi daha sonra 2 qol vuraraq, oyunun taleyini həll etməyi bacarıb - 2:1.

"Bayıl Arena"da "Xəzər Lənkəran" "Qəbələ" ilə üz-üzə gəlib. Cənub klubu 3 xalı 3 qolla əldə edib.

Turun son görüşü "İnter"lə AZAL arasında keçirilib. "Bankirlər" minimal hesabla qalib gəlib - 1:0.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

Baş gizir Şabanov Ceyhun Bəşir oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## "İnformasiya təhlükəsizliyi" və "Fiziki təhlükəsizlik üzrə məlumatlar" topluları hazırlanıb







***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrin fəaliyyəti haqqında informasiyanın yayılması, dövlət sirrinin mühafizəsi və informasiya təhlükəsizliyinin təmin olunması sahəsində tədbirlər haqqında müvafiq əmrinə əsasən, "İnformasiya təhlükəsizliyi" və "Fiziki təhlükəsizlik üzrə məlumatlar" topluları hazırlanıb.***

Bukletlərdə Müdafiə Nazirliyinin idarə, müəssisə, hərbi hissə və digər hərbi obyeklərində internet və rabitə xidmətindən istifadə zamanı kompüterlərin, şəxsi məlumatların qorunması üçün təhlükəsizlik və şifrə generasiya edən proqram təminatlarından istifadə qaydaları, kompüter istifadəçilərinə müəyyən edilən təhlükəsizlik qadağaları, eyni zamanda nazirliyə aid olan obyektlərə buraxılma qaydaları və keçirilən tədbirlər zamanı təhlükəsizlik tədbirləri öz əksini tapıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Əsgərin tribunası*

## Ürəyimiz intiqam hissi ilə döyünür

***Vətənə xidmət etmək hər kəsin müqəddəs borcudur. Bu şərəfli borcu peşəkarlıqla yerinə yetirmək üçün hər birimiz üzərimizə düşən vəzifələrə məsuliyyət hissi ilə yanaşmalıyıq. Ordu sıralarına həvəslə gəlmişəm. Hərbi həyata həvəs məndə hələ erkən yaşlarımda oyanıb. Atam hərbçi idi. Vətənə xidmət edirdi. Onu hərbi formada görəndə, bu peşəyə marağım daha da artırdı. Vətənə əsgər olacağım günü intizarla gözləyirdim. Orta məktəb illərində də hərbi dərslərə maraq göstərirdim. Silahları söküb-yığmağı, hədəflərə atəş açmağı öyrənməyə çalışırdım.***




Orta məktəb illəri ötüb arxada qaldı. Ali təhsil almaq üçün sənədlərimi Milli Aviasiya Akademiyasına verdim. Hazırlığım yüksək olduğuna görə qəbul olunacağıma ümidli idim. İmtahana həvəslə yollandım. Tələb edilən qədər bal toplayıb arzuma qovuşdum, Milli Aviasiya Akademiyasının hava nəqliyyatı və uçuşun texniki istismarı fakültəsinə daxil oldum. Həmin gün sevincimin həddi-hüdudu yox idi. Çünki neçə vaxtdan bəri ürəyimdə gəzdirdiyim arzularım çiçək açmışdı.

Ali təhsil illərini uğurla başa vurduqdan sonra bu ilin iyul ayında Abşeron rayonundan ordu sıralarına çağırıldım. Vətənə əsgər olacağım gün artıq gəlib çatmışdı. İsti yay günlərinin birində başqa həmyaşıdlarım kimi mən də əynimə əsgər forması geyindim. Həmin günü bütün ömrüm boyu xoş hisslərlə xatırlayacağam. Artıq Vətənə əsgər olmuşdum. Komandirlərin verdikləri ilk əmrləri yerinə yetirərək sırada addımlayır, hərbi bilik və vərdişlərə yiyələnirdim. Günlər və həftələr arxada qaldıqca daha təcrübəli və səriştəli olurdum. Bir müddətdən sonra təntənəli surətdə hərbi andı qəbul etdik. Vətənə sədaqətlə xidmət edəcəyimizə, torpaqlarımızı göz bəbəyimiz kimi qoruyacağımıza and içdik.

Ötən müddət ərzində lazımi hərbi bilik və vərdişlərə dərindən yiyələnmişəm. Müxtəlif silahlardan hədəflərə düzgün atəş açmağı bacarıram. Təcrübəli zabitlər həm əməli, həm də nəzəri məşğələlərdə bizə hərbi bilik və vərdişləri mükəmməl öyrədirlər. Biz əsgərlər isə səmərəli keçən bu məşğələlərdə fəal iştirak edərək peşəkarlığımızı artırmağa çalışırıq. Yaxşı bilirik ki, hazırlığımız nə qədər yüksək olarsa, döyüşdə asanlıqla qələbə qazanarıq.

Bu gün biz hərbçilərin üzərinə böyük vəzifələr düşür. Ən mühüm vəzifəmiz isə erməni işğalçılarının tapdağı altında olan torpaqlarımızı azad etməkdir. Bu tarixi vəzifəni yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşır, döyüş vərdişlərimizi daha da təkmilləşdirməyə can atırıq. Düşmənə nifrətimiz sonsuzdur. Ürəyimiz intiqam, qisas hissi ilə döyünür. Nə qədər ki, torpaqlarımız düşmən əlindədir, hər dəqiqə, hər an barmaqlarımız silahların tətiyində olacaq.

**Vasif MƏMMƏDOV,
"N" hərbi hissəsinin əsgəri**

# Xarici hərbi xronika

### Hərbi qulluqçular tibbi testdən keçəcəklər

Rusuya ordusunda hərbi həkimlər hərbi polislərlə birlikdə hər il narkotik maddələrin istifadəsi ilə əlaqədar, müddətdən artıq xidmət edən və müqavilə ilə xidmət keçən hərbi qulluqçuları müayinədən keçirəcəklər. Tibbi yoxlamadan keçməkdən əgər kimsə imtina edərsə, komandir bununla əlaqədar yuxarı komandanlığa məlumat verməlidir. Əgər hərbi qulluqçu testdən imtina edərsə, bu, şübhə yarada bilər. Müdafiə Nazirliyinin məlumatına görə, müayinədən keçməyən hərbi qulluqçulara xüsusi tapşırıqların yerinə yetirilməsinə icazə verilməyəcək. Məsələn, raket komplekslərində, sualtı qayıqlarda və digər strateji obyektlərdə onların işləməsi qadağan ediləcək.

### Patriot zenit kompleksləri üçün 136 raket

Cənubi Koreyanın Müdafiə Nazirliyi Patriot PAC-3 zenit-raket kompleksləri üçün 136 ədəd raket sifariş edib. Pentaqonun hərbi əməkdaşlıq üzrə idarəsi artıq ABŞ Konqresinə mümkün olacaq sazişin qiymətinin 1.41 milyard dollar təşkil edəcəyi barədə məlumat verib. Hələ bu sazişin nə vaxt imzalanacağı dəqiq bilinmir. Cənubi Koreya ordusu zenit kompleksləri üçün raketlərdən başqa konteynerlərin, ehtiyat hissələrinin, avadanlıqların və s. alınmasını da planlaşdırıb. Daha sonra ABŞ-dan ballistik məqsədlər üçün imitatorlar (təqlidçilər) da sifariş edilir.

Verilən məlumata görə, yeni raketlər ölkənin təhlükəsizliyini təmin edəcək, ABŞ hərbi kontingentindən asılılığı azaldacaq.

**Hazırladı:
Svetlana NƏSİBQIZI**

## "Xidmətimlə qürur duyuram"



Xidməti zərurətlə əlaqədar ezam olunduğum hospitalda adi iş günlərindən biri başlayır. Həkimlər, tibb bacıları və digər işçilər nəzarət-buraxılış məntəqəsindən keçərək xidmət yerlərinə tələsirlər. Hospitalın müalicə kabinetlərində tibb personalının iş fəaliyyəti yazacağım məqalənin mövzusuna çevrilir.

Nümunəvi xidmətinə görə başqalarından seçilən tibb bacısı Güldəstə Ələkbərova ilə söhbət aparmağı qərara alıram. Müsahibimdən özü haqqında məlumat verməyi xahiş edirəm. Baş tibb bacısı xidmətə başladığı ilk günləri yada salır.

- Qarabağ müharibəsinin çətin günlərində könüllü olaraq hospitalda işə başladım, - deyir Güldəstə. - O zaman tibb bacılarına ehtiyac çox idi. Cəbhədən gələn yaralıların tez sağalıb geri dönməsinə çalışırdıq. İllərdən bəri qazandığım təcrübəmi gənc həmkarlarıma öyrətməkdən zövq alıram. Müharibə şəraitində yaşamağımız işimizin məsuliyyətini daha çox artırır. Artıq təqaüdə çıxmaq vaxtım yaxınlaşır. Sevinirəm ki, mənim bu hospitalda davamçılarım var.

Söhbətimizi diqqətlə dinləyən tibb bacıları söylədilər ki, Güldəstə xanımı kollektivə sevdirən əsas xüsusiyyətlərindən biri xəstələrinə göstərdiyi xüsusi diqqət və qayğıdır. Biz onun dəyərli məsləhətlərindən həmişə yararlanırıq.

Baş çavuş G.Ələkbərova xidmət etdiyi dövrdə Silahlı Qüvvələrin 10, 90, 95 illik yubiley, "Qüsursuz xidmətlərə görə" 3-cü dərəcəli medallarına, diplom və fəxri fərmanlara layiq görülüb, dəfələrlə komandanlıq tərəfindən təşəkkürlər alıb.

G.Ələkbərovanın yetirməsi olan çavuş Mətanət Quliyeva hazırda hospitalda şöbələrin birində baş tibb bacısı vəzifəsində çalışır. İşini sevən, xəstələrə diqqət və qayğısını heç zaman əsirgəməyən M.Quliyeva öz peşəsinə dərindən bağlıdır. O, 2 saylı Bakı Baza Tibb məktəbini bitirib. Əslən Tovuz rayonundan olan M.Quliyeva özünün dediyi kimi, müharibənin ağrı-acılarını hələ gənc yaşlarından hiss edib. Çünki yaşadığı rayon ermənilərlə sərhəd bölgəsidir.

Müsahibimin maraqlı söhbətindən doğan sualla ona müraciət edirəm:

- Mətanət xanım, gənc yaşda hərbi xidmətdəsiniz, çətin deyil ki?

- Əsla, bu gün Ali Baş Komandanın döyüş əmri olarsa, öndə gedənlərdən biri olaram, - deyir həmsöhbətim. - Müharibə zamanı ilk səfərbər olunanlar da tibb bacıları, həkimlərdir. Nə vaxtacan torpaqlarımız düşməndən geri alınmayıb, atəş səsləri kəsilməyib, deməli, müharibə hələ bitməyib. Hospitallarda hərbi xidmətdə olan tibb bacıları bunu bilməli və səfərbərliyə həmişə hazır olmalıyıq. Mən döyüş zamanı peşə borclarını yerinə yetirərkən şəhid olan tibb işçilərinin qəhrəmanlıqlarından çox oxumuşam. Milli Qəhrəman Gültəkin Əsgərovanın, "Azərbaycan Bayrağı" ordenli Məleykə Səmanın keçdiyi döyüş yolu bizə örnəkdir.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 412
Nüsxə 4570